**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# I SİNİF ŞAGİRDLƏRİNİN MƏKTƏBƏ ADAPTASİYASININ PSİXO-PEDAQOJİ ƏSASLARI

İxtisas: 6104.01 – Pedaqoji psixologiya

Elm sahəsi: Psixologiya

İddiaçı: **Aynur Firuz qızı Əlimuradova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun "Psixologiya və xüsusi təhsil" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Psixologiya üzrə elmlər doktoru, professor, əməkdar müəllim
**Ramiz İbrahim oğlu Əliyev**

Rəsmi opponentlər: Psixologiya elmləri doktoru, professor
**Gülnarə Kazım qızı Qurbanova**

Psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Simnarə Nadir qızı Heydərova**

Psixologiya üzrə fəlsəfə doktoru
**Günay Salman qızı Kazımova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.43 dissertasiya şurası

Dissertasiya şurasının sədri: Psixologiya elmləri doktoru, professor
**Kamilə Ramiz qızı Əliyeva**

Dissertasiya şurasının elmi katibi: Psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Müşviq Hüseyn oğlu Mustafayev**

Elmi seminarın sədri: Psixologiya elmləri doktoru, professor
**Rəşid Vəkil oğlu Cabbarov**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNIVERSITETI
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"16" 12 2024

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Uşaqların məktəbə uyğunlaşması təhsilin başlanğıc mərhələsinin ən vacib, müəllimlər üçün çətin və valideynlər üçün həssas problemlərindən biridir. Öz geniş mənasında məktəbə adaptasiya uşağın yeni sosial şərtlər sisteminə, yeni münasibətlərə, tələblərə, fəaliyyət növlərinə, həyat tərzinə və s. uyğunlaşması kimi başa düşülür. Məhz məktəb tələblərinə, normalarına və sosial münasibətlərinə uyğun gələn uşaq əksər hallarda adaptasiya olunmuş uşaq sayılır.

Bunu da qeyd edək ki, adaptasiya, sonrakı təhsil müddəti və müvəffəqiyyətinə təsir edən əsas amillərdən biri olduğu qəbul edilir. Bir sıra tədqiqatçıların müşahidələrinə görə (S.D. Polyakov, S.V. Xruşev, A.M.Sobolev), birinci rüb ərzində sinir-psixi xəstəlikləri olan şagirdlərin sayı təqribən 14-16%, tədris ilinin sonuna kimi isə 20%-dək artır.

Şagirdlərin məktəb mühitinə adaptasiyası, qarşılıqlı münasibətlər sisteminə və mühitə uyğunlaşması daim tədqiqat obyekti olmuş, problem müxtəlif aspektlərdən araşdırılmışdır. Dünya psixoloqlarından Q.Şreder, M.Şerif, İ.Bojoviç, L.Vıqotski, Y.Kolominski, S.Rubinşteyn, Azərbaycan psixoloqlarından Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, Ə.Ə.Qədirov, B.H.Əliyev, K.R.Əliyeva, R.İ.Əliyev, M.Ə.Həmzəyev, S.İ.Seyidov, Ü.A.Əfəndiyeva, G.S. Kazımova və başqaları öz tədqiqatlarında problemin ümumnəzəri və psixoloji məsələlərini öyrənmişlər.

Adı çəkilən alimlər problemi müxtəlif aspektlərdə öyrənsə də, konkret olaraq I sinif şagirdlərinin məktəbə adaptasiya məsələləri tədqiqat obyektinə çevrilməmişdir

M.M.Bezrukix, N.V.Dubrovinskaya, İ.V.Dubrovina, D.A.Farber öz əsərlərində adaptasiya prosesinə təsir edən xarici amillərə diqqət yetirirlər. Həddindən artıq təsir göstərən xarici amillər kimi təhsil prosesinin intensivləşməsi; sistematik təlimə daha əvvəl başlanması; metod və texnologiyaların uşaqların yaşına və funksional imkanlarına uyğunsuzluğu; təhsil prosesinin irrasional təşkili və pedaqoji qarşılıqlı əlaqələrin, əsasən, stresli taktikaları göstərilir. Buna görə də emosional-motivasiya sferasının və vegetativ tənzimləmə sistemlərinin qarşılıqlı əlaqəsi və qarşılıqlı asılılığı, pedaqoji ünsiyyət prosesində müəllimlə şagirdlərin qarşılıqlı əlaqələrinin xüsusiyyətləri kiçik

məktəblilərin adaptasiya prosesindəki pedaqoji, psixoloji funksiyaların korrelyasiyasının öyrənilməsinin vacibliyini şərtləndirir.

Bu baxımdan bir çox mütəxəssislər haqlı olaraq göstərirlər ki, pedaqoji ünsiyyət tərzinin yaxşılaşdırılması yalnız gələcək müəllimlərin hazırlanmasında deyil (A.V.Petrovski, A.Plexanov, İ.V.Straxov, A.İ.Şerbakov, A.E.Şteinmets), müəllimlərin peşəkar inkişafı sistemində də önəmli yerlərdən birini tutmalıdır.

Bir sıra tədqiqatçıların (B.Q.Ananyev, R.Berne, Y.B.Qatanov, A.K.Markova, A.Y.Nikonova, A.O.Proxorov, V.A.Rahmatşayeva, R.X.Şakurov, K.Levin, R.Lippit, R.Uayt) əsərləri müəllimin peşə fəaliyyəti üslubunun şagirdlərin fərdi inkişafının müxtəlif aspektlərinə təsirinə həsr olunmuşdur. Müəllimin və şagirdlərin qarşılıqlı əlaqəsi (kommunikativ proses) probleminin təhlilində Q.Q.Kravtsov, E.E.Kravtsova, M.İ.Lisina, D.B.Elkonin də əsərləri mühüm əhəmiyyət kəsb edir.

Bununla yanaşı, elmi ədəbiyyatda, kiçik məktəblilərin adaptasiya proseslərinə psixo-pedaqoji dəstəyin işlənib hazırlanması, həmçinin adaptasiya dövründə uşaqlara psixo-pedaqoji ünsiyyət vasitəsilə psixo-pedaqoji dəstəyin verilməsinə dair tədqiqatlar praktik olaraq yoxdur.

Beləliklə, tədqiqatın aktuallığı kiçik məktəblilərin adaptiv qabiliyyətlərinin formalaşmasının psixo-pedaqoji təminatının elmi cəhətdən işlənib hazırlanması tələbatı ilə uşaqların məktəb təliminə uyğunlaşma prosesindəki həqiqi vəziyyət arasındakı ziddiyyətlə müəyyən edilir.

Müəllimin müəyyən pedaqoji ünsiyyət üslublarının ibtidai sinif şagirdlərinin adaptasiya xüsusiyyətlərinə təsirinin əsas cəhətlərinə həsr olunmuş konkret tədqiqatların olmaması hazırkı tədqiqatın problemini müəyyənləşdirmişdir. Psixo-pedaqoji ünsiyyətin uşaqların məktəbə müvəffəqiyyətlə adaptasiyanın şərti olması müddəası eksperiment yolu ilə təsdiqlənməlidir.

**Tədqiqatın obyekti və predmeti.** I sinif şagirdlərinin məktəbə adaptasiya prosesi tədqiqat işinin **obyekti** kimi çıxış edir. Yəni, obyekt şagirdlərin tədris mühiti ilə qarşılıqlı əlaqəsi, təhsil prosesi və onların məktəbə uyğunlaşmasının baş verdiyi şəraitdir. Tədqiqatın **predmetini** isə I sinif şagirdlərinin məktəbə adaptasiya prosesinin xüsusiyyətləri, qanunauyğunluqları, bu prosesin psixo-pedaqoji müşayiəti, adapta-

siya prosesinə təsir göstərən amillər, psixo-pedaqoji kommunikasiyanın rolu təşkil edir. Bunlara uşağın emosional vəziyyəti, motivasiyası, pedaqoji dəstək metodları, müəllim və həmyaşıdları ilə qarşılıqlı əlaqənin xüsusiyyətləri, habelə ailə mühiti və onun uyğunlaşmaya təsiri kimi məqamlar da daxil ola bilər.

**Tədqiqatın məqsəd və vəzifələri.** I sinif şagirdlərinin məktəbə adaptasiyasının psixo-pedaqoji əsaslarının üzə çıxarılması, onların adaptasiya prosesinin psixo-pedaqoji müşayiət proqramının hazırlanması, nəzəri cəhətdən əsaslandırılması və aprobasiyası **tədqiqatın məqsədini** təşkil edir. Bu məqsəddən çıxış edərək tədqiqat zamanı qarşıya aşağıdakı **vəzifələr** qoyulmuşdur:

- Məktəbdə təliminə adaptasiya probleminin mahiyyəti və məzmununun öyrənilməsi;
- I sinif şagirdlərinin pedaqoji adaptasiya nəzəriyyəsinin əsas müddəalarının nəzərdən keçirilməsi;
- Pedaqoji-psixoloji ədəbiyyatda problemin qoyuluşunun təhlili;
- I sinif şagirdinin psixo-pedaqoji adaptasiya prosesinin obyekti və subyekti kimi araşdırılması;
- Uşaqların məktəbə adaptasiyasında oyun fəaliyyətinin imkanlarının müəyyən edilməsi;
- Psixo-pedaqoji kommunikasiyanın uşaqların məktəbə uğurlu adaptasiyasında əsas şərt kimi tədqiq edilməsi;
- Psixo-pedaqoji kommunikasiyanın mahiyyəti və məzmun xüsusiyyətlərinin təsviri;
- Məktəbəqədər dövrdə uşaqların məktəbə hazırlığına təsir göstərən əsas amillərin araşdırılması;
- I sinif şagirdlərinin məktəbə adaptasiyası zamanı onlara psixo-pedaqoji dəstəyin təşkili və vasitələrinin müəyyənləşdirilməsi;
- Təhsildə çətinlik çəkən şagirdlərin məktəbə adaptasiya prosesinin psixo-pedaqoji idarə edilməsi xüsusiyyətlərinin üzə çıxarılması;
- Psixo-pedaqoji kommunikasiyanın I sinif şagirdlərinin adaptasiyasına təsiri xüsusiyyətlərinin təcrübi-eksperimental tədqiqi;
- Müxtəlif psixo-pedaqoji kommunikasiya üslubuna malik müəllimlərin şəxsi xarakteristikalarının və bu üslublardan asılı

olaraq I sinif şagirdlərinin adaptasiya xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

- "Psixo-pedaqoji kommunikasiya" proqramı vasitəsilə adaptasiya prosesinin öyrənilməsi.

**Tədqiqat metodları.** Tədqiqatın gedişində müşahidə, anket sorğusu, eksperiment, psixodiaqnostik metodlardan istifadə olunmuşdur. Tədqiqat materiallarının kəmiyyət və keyfiyyət təhlilindən də istifadə olunmuşdur. Eksperimentin nəticələrinin emalı sosial tədqiqatlar zamanı geniş istifadə olunan SPSS25 proqramının köməyilə aparılmışdır.

Tədqiqat plana uyğun şəkildə 2019-cu ildə həyata keçirilmişdir. Tədqiqata Bakı səhəri, Suraxanı rayonu 141 nömrəli tam orta məktəbin, Xətai rayonu 147 nömrəli texniki-humanitar liseyin, Nəsimi rayonu 8 nömrəli tam orta məktəbin, Yasamal rayonu 20 nömrəli tam orta məktəbin, Lerik rayonu Bobla kənd orta məktəbin, İsmayıllı rayonu Mücühəftəran kənd tam orta məktəbin, Quba rayonu Qırmızı qəsəbə 1 nömrəli tam orta məktəbin, Şabran rayonu Tofiq Abbasov adına 1 nömrəli tam orta məktəbin 1-ci sinif şagirdləri cəlb edilmişdir. İlkin mərhələ eksperimentə hazırlıq görülmüş, müvafiq məktəb və siniflər müəyyənləşdirlmişdir.

Tədqiqatın müəyyənləşdirmə və formalaşdırma mərhələlərində birinci siniflərin 216 şagirdi və orta ümumtəhsil məktəblərinin müəllimləri iştirak etmişlər.

Ümumilikdə, təcrübənin müəyyənləşdirilməsi mərhələsində aparılan tədqiqat işində 11 müəllim iştirak etmiş, onların hər biri formalaşdırma mərhələsinin proqramının həyata keçirilməsində yaxından iştirak etmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:**

1. 1-ci sinif şagirdlərinin adaptasiya qabiliyyətlərini bütün komponentlər ilə sıx əlaqədə inkişaf etdirdikdə daha yaxşı səmərə verir. Bu onların məktəbə adaptasiyasında mühüm rol oynayır;

2. Məktəbə uğursuz adaptasiyasını aradan qaldırmağın yollarından biri adaptasiya prosesinə faydalı olan əsas faktorları müəyyənləşdirməkdir. Bunlardan ən vacibi psixo-pedaqoji ünsiyyətdir. Ünsiyyət anlayışını psixo-pedaqoji biliklərin paradiqmatik əsasları nöqteyi-nəzərindən öyrənmək uğurlu adaptasiya prosesinə fayda verir;

3. Uşağın məktəbə uğurlu adaptasiyasında təlim zamanı oyundan istifadənin rolu əhəmiyyətlidir. Çünki, oyun uşağın inkişafı üçün vacib öyrənmə vasitəsi olmaqla yanaşı, nizam-intizam qaydaları və vərdişlərə yiyələnməsini dəstəkləyir. Həmçinin uşağın sərbəst olduğu oyun mühitində yaradıcı təfəkkürü daha da inkişaf edir ki, bu da təlimə adaptasiya üçün olduqca faydalıdır;

4. I sinif şagirdlərinin adaptasiya prosesinə psixoloji və pedaqoji dəstəyin təşkili üçün nəzəri cəhətdən əsaslandırılmış və təcrübə yolu ilə sınaqdan keçmiş "Psixo-pedaqoji kommunikasiya" proqramı şagirdlərin pedaqoji ünsiyyətin tamhüquqlu subyektləri kimi formalaşması üçün əsas rolunu oynayır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi kimi aşağıdakı müddəalar çıxış edə bilər:

1. Birinci sinif şagirdlərinin məktəbə adaptasiya prosesinin strukturu işlənmişdir.

2. Psixo-pedaqoji kommunikasiyanın mahiyyəti və məzmun xüsusiyyətləri, məktəbəqədər dövrdə uşaqların məktəbə hazırlığına təsir göstərən əsas xüsusiyyətləri öyrənilmişdir.

3. I sinif şagirdlərinin məktəbə adaptasiyası zamanı onlara psixo-pedaqoji dəstəyin təşkili və vasitələri nəzərə alınaraq məsələ ətraflı təhlil edilmişdir.

4. Kiçikyaşlı məktəblilərin məktəbə psixo-pedaqoji adaptasiyasında oyunların rolu öyrənilmişdir.

5. Uşaqlarda adaptasiya prosesindəki gərginlikləri öyrənməyə imkan verən daha informativ psixoloji və pedaqoji tədqiqat metodları müəyyən edilmişdir.

6. I sinif şagirdlərinin məktəbə uğurlu adaptasiyasına töhfə verən "Psixo-pedaqoji kommunikasiya" proqramı hazırlanıb sınaqdan keçirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondadır ki, burada adaptasiya prosesinin nəzəri əhəmiyyəti onun strukturunun müəyyənləşdirilməsi ilə əsaslandırılmış, təhsil kommunikasiyası, didaktik kommunikasiya və psixo-pedaqoji ünsiyyət anlayışları psixoloji və pedaqoji biliklərin paradiqmatik əsaslarının təhlili yolu ilə differensiallaşdırılmış və onun funksiyası I sinif

şagirdlərinin adaptasiya prosesində üzə çıxarılmışdır. Bundan başqa, I sinif şagirdlərinin uğurlu adaptasiya meyarları təcrübə yolu ilə təsdiqlənmiş və əsaslandırılmışdır, yəni: pedaqoji ünsiyyət tərzi ilə I sinif şagirdlərinin adaptasiya prosesinin uğuru arasında əlaqə qurulmuşdur. Qeyd olunan məsələlər ön plana çəkilərək nəzəri cəhətdən əsaslandırılmışdır.

Həmçinin dissertasiyada işinin sonunda əldə edilmiş nəticələrdən müəllim, psixoloq və valideynlər tərəfindən istifadə oluna bilər.

Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın nəticələrinə yaş psixologiyasının və pedaqoji-psixologiyanın tədrisində istinad edilə bilər. İbtidai sinif müəllimləri, valideynlər, psixoloqlar, həmçinin məktəbəqədər qruplarla çalışan tərbiyəçilər nəticələrdən faydalana bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Müəllifin tədqiqat mövzusunun müxtəlif aspektlərinin təhlilinə həsr etdiyi və dissertasiya işinin əsas məzmununun əks olunduğu 3-ü xaricdə olmaqla, 8 məqaləsi nəşr olunmuşdur. Bundan başqa, müəllif 4 beynəlxalq, 2 respublika elmi-praktik konfransda iştirak edərək dissertasiyanın yazıldığı zaman gəldiyi qənaətlər barədə məruzələrlə çıxış etmiş, həmin məruzələr də çap olunmuş və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi **Azərbaycan Respublikasının Təhsil İnstitutunda** yerinə yetirilmişdir.

**Dissertasiyanın həcmi.** Dissertasiya işi giriş, 11 yarımfəsili özündə birləşdirən 3 fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

Giriş - 7 səhifə, 12187 işarə, birinci fəsil – 36 səhifə, 66640 işarə, ikinci fəsil – 44 səhifə, 84049 işarə, üçüncü fəsil – 25 səhifə, 36558 işarə, nəticə - 4 səhifə, 5447 işarə, istifadə olunmuş ədəbiyyat siyahısı-17 səhifə, əlavələr - 8 səhifədən ibarətdir. Tədqiqat işinin ümumi həcmi 142 səhifə, Giriş və əsas məzmunu - 204842 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın birinci fəsli **“Məktəbdə təhsilə adaptasiya probleminin elmi-nəzəri əsasları”** adlanır. Fəsil özündə üç paraqrafı əhatə

edir. Birinci fəslin birinci paraqrafı "I sinif şagirdlərinin pedaqoji adaptasiya nəzəriyyəsinin mahiyyəti və əsas müddəaları" adlanır. Paraqrafda problemin mahiyyəti ilə bağlı nəzəri yanaşmalar öyrənilmişdir. "Adaptasiya" (uyğunlaşma) termini elmi əsərlərdə XVIII əsrin ikinci yarısından etibarən istifadə olunmağa başlayıb. Adaptasiya anlayışını alman fiziki H. Aubertin adı ilə əlaqələndirirlər. Pedaqoji ensiklopediyada tədris zamanı adaptasiya hər hansı bir akademik və ya tədris predmetini öyrənməyə yeni başlayanlar üçün mətnin sadələşdirilməsi prosesi kimi qəbul edilir. Adaptasiya həm də əqli, sosial-psixoloji, fərdi, subyektiv və obyektiv sosial şərtlər və faktorların qarşılıqlı əlaqəsinə əsaslanan çoxtərəfli dinamik proses kimi nəzərdən keçirilir.

Psixoloji lüğətdə adaptasiyaya aşağıdakı şərhlər verilir:

1) fərdin sosial mühitin şərtlərinə daimi uyğunlaşma prosesi;
2) bu prosesin nəticəsi.[1]

Bu komponentlərin davranış xarakterini müəyyən edən nisbət, fərdin hədəf və dəyər oriyentirlərindən, sosial mühitdə onlara nail olma imkanlarından asılıdır. Adaptasiya davamlı xarakter daşıyır. Onu,adətən, fərdin fəaliyyətinin və onun sosial əhatəsinin köklü dəyişiklik dövrləri ilə əlaqələndirirlər.

Adaptasiyanın bu cür şərhinə İ.V.Dubrovina, R.V.Ovçarova, N.İ.Qutkina öz araşdırmalarinda riayət edir.[2]

Adaptasiya təkcə müəyyən bir mühitdə uğurlu fəaliyyətə uyğunlaşma deyil, həm də növbəti psixoloji, fərdi və sosial inkişaf qabiliyyətidir.

Psixologiyada "ilkin adaptasiya" terminindən istifadə olunur. Bu, təxminən ilin birinci yarısında məktəbdə davam edən bir dövrdür. Məhz bu dövrdə müəllim heyətinin, psixoloqların, valideynlərin həm uşaqların məktəbə tez alışmasını, həm də öz inkişaf və həyat fəaliyyəti mühitinə uyğunlaşmasını hədəfləyən əsas işləri başlayır.

Birinci fəslin ikinci paraqrafı mövzu ilə bağlı ədəbiyyatda adaptasiya probleminin işıqlandırılmasına həsr olunub. **"Pedaqoji-psixoloji**

---

[1] Битянова, М.П. Адаптация ребенка к школе: диагностика, коррекция, педагогическая поддержка / М.П.Битянова. - М., -1997. -282 с.

[2] Диагностика школьной дезадаптации. Для школьных психологов и учителей начальных классов системы компенсирующего обучения. - М.: Ред.-изд. центр конс. "Социальное здоровье России", -1995. -448 с.

**ədəbiyyatda məktəbə adaptasiya problemi"** adlanan paraqrafda ədəbiyyatlar əhatəli şəkildə təhlil edilib və müvafiq nəticələr çıxarılıb.

Hər bir uşağın ümumi inkişafında xüsusi dövr olaraq kiçik məktəb yaşı dövrünü səciyyələndirərkən xarakterik əlamətləri əsas götürmək məqsədəuyğun hesab edilir. Məktəbəqədər təhsil müəssisəsindən məktəbə qədəm qoyan uşağın cəmiyyətdəki mövqeyi də, gündəlik yaşayış tərzi də dəyişir. Kiçikyaşlı məktəblinin həyatında yeni fəaliyyət növü olan təlim onun davranış motivlərini əhəmiyyətli dərəcədə dəyişdirir, beləliklə, uşağın qarşısına davamlı şəkildə biliklər sisteminə yiyələnmək vəzifəsi qoyulur.

S.İ.Seyidov və M.Ə.Həmzəyev belə hesab edirlər ki, məktəbə psixoloji hazırlıq məqsədilə uşaqda qavrayışın, diqqətin, təxəyyülün, hafizə, təfəkkür və nitqin inkişafı ilə yanaşı, digər fəaliyyət növlərini, xüsusilə onun təlim fəaliyyətini uğurla yerinə yetirməsi üçün bir sıra tələblər ortaya çıxır.

Birinci fəslin üçüncü paraqrafı **"I sinif şagirdlərinin başlıca psixoloji xüsusiyyətləri və məktəbə adaptasiya zamanı onlardan istifadə"** adlanır. Paraqrafda I sinif şagirdlərinin əsas psixoloji özəllikləri və bu özəlliklərin təhsilin başlanğıc pilləsindəki istifadə imkanları nəzərdən keçirilib.

Kiçikyaşlı məktəbli üçün müəllim və onun rolu çox böyük əhəmiyyət kəsb edir. Pedaqoji ünsiyyətdə təbəssüm, dialoqun əvəzolunmaz atributudur. Həmsöhbət nə qədər gəncdirsə, o, bir o qədər böyüklərin səssiz gülümsəməsi ilə həvəsləndirilməyə ehtiyac duyur. Təkcə təlim prosesində deyil, həm də qeyri-rəsmi ünsiyyət şəraitində də ibtidai sinif və yeniyetmə yaşlı uşaqların təbəssümə ehtiyacı var. Buna görə müəllim, sözsüz, ünsiyyətin bu mimik elementində xəsislik edərsə, şağird ilə onun arasında olan onsuz da böyük yaş məsafəsini daha da artırmış olur.

**"Psixo-pedaqoji kommunikasiya uşaqlarin məktəbə uğurlu adaptasiyasinda əsas şərt kimi"** adlı növbəti, ikinci fəsli özündə üç paraqrafı birləşdirir.

Fəslin birinci paraqrafı **"Psixo-pedaqoji kommunikasiyanın mahiyyəti və məzmun xüsusiyyətləri"** adlanır. Bir çox görkəmli müəllimlər pedaqoji ünsiyyətin və pedaqoji üslubun təhsil prosesində

həlledici rolunu və böyük əhəmiyyətini göstərdilər. A.S. Makarenko müəllimin pedaqoji ustalıq və pedaqoji ünsiyyət texnikasına yiyələnməsinin vacibliyini vurğulayır. *"İnsan üzündə, uşağın üzündə olan ifadəni oxumağı bacarmalısan və bu oxu hətta xüsusi kurs kimi yazılmalıdır. Ruhi hərəkətlərin bəzi əlamətlərini üzdə oxumaq heç də hiylə və ya sehr sayılmamalıdır. Pedaqoji mükəmməllik tərbiyəçinin səsini təyin etməkdə və üz ifadəsini idarə etməkdədir. Müəllim rol oynaya bilməz."*[3]

B.G. Ananyev "*hər hansı bir fəaliyyətin obyekt-subyekt münasibətləri sistemində həyata keçirildiyini iddia edir, yəni insanı sosial varlıq kimi formalaşdıran sosial əlaqələr və qarşılıqlı əlaqələr sistemində - bir şəxs, subyekt və tarixi prosesin obyekti olduğunu*" [4]deyir Fəaliyyət yalnız bu əlaqələr və münasibətlər sistemində həyata keçirilir.

Qeyd etmək lazımdır ki, bu məsələnin həllinə fərqli yanaşmalar mövcuddur. Ünsiyyət (xüsusən pedaqoji) müasir psixologiyanın ən çox toxunduğu mövzulardan biridir. 1960-cı illərin sonundan bu günə qədər yüzlərlə əsər bu mövzuya həsr edilmişdir. Xüsusilə ABŞ, Almaniya və İtaliyada bu cür əsərlər çox yayımlanıb. Zamanla ünsiyyət problemləri ilə bağlı tədqiqat işlərinin bütün təbəqələrini ümumiləşdirən çox möhkəm əsərlər ortaya çıxıb. Amerikalı psixoloqlar J. Brofi və T. Guddun bu cür ümumiləşdirici əsərlərindən biri "Müəllimlə şagird arasındakı əlaqə" əsərini professor A.N. Leontyev təhlil edib. O, müəlliflər tərəfindən toplanan və müəllimlərin ünsiyyətinin "subyektivliyi" ilə əlaqəli olan, ilk növbədə seçici münasibətdə özünü göstərən məlumatlara diqqət yetirir.

İkinci fəslin *"***Məktəbəqədər dövrdə uşaqların məktəbə hazırlığına təsir göstərən əsas amillər***"* adlı paraqrafında mövcud təsiredici amillər nəzərdən keçirilib.

Məktəbə başladıqları ilk illərdə uşaqlar yeni məktəb mühitinə uyğunlaşmağa çalışarkən, ev mühitində emosional, sosial və idrak sahələrində səriştəlilik tələb edən yeni və fərqli bacarıqlara əlavə olaraq həyatlarına yeni akademik bacarıqları da əlavə edirlər. Daha da inkişaf etmiş

[3] Маслова, Н. Ф. Стиль руководства учителя как способ социально-психологического воздействия / Н.Ф. Маслова. -Л., -1973. –238 с.

[4] Психология личности в трудах отечественных психологов / сост. Л. В. Куликов. - СПб., -2000. -458 с.

idrak, diqqət və sosial bacarıqları olan uşaqlar məktəbdən daha çox faydalanır və məktəbdə inkişaf etmiş bacarıqlarını nümayiş etdirirlər. Bununla birlikdə, bu keçid dövründə uyğunlaşa bilməyən uşaqlarda məktəbi bəyənməmə hissi artır; hətta akademik çətinliklər və antisosial davranışlar yaranır ki, sonunda məktəbi buraxırlar.

Bloom-Feşbax və Blatt tərəfindən aparılan araşdırmada, uşaq bağçasına girən uşaqların ilk günlərdə, ailədən ayrılmasına, valideynlərinin yanından ayrılmaq istəməmələrinə, valideynlərinin bağçanı tərk etmələrinə icazə verməmələrinə, onları qucaqlayıb ağlayaraq getmələrinə imkan vermələrinə və bağçada yatmamalarına rast gəlinir. Onlar məktəbdə qrupa girmədən kənarda oturur və valideynlərinin nə vaxt gələcəyi ilə bağlı suallar verir. Bu baxımdan məktəbəqədər dövrdə məktəb adaptasiyasını təsir edən bir çox amil mövcuddur

II fəslin 3-cü paraqrafının birinci yarımparaqrafı "**I sinif şagirdlərinin məktəbə adaptasiyası zamanı onlara psixo-pedaqoji dəstəyin təşkili və vasitələri**" adlanır. Uğurlu uyğunlaşmada uşağın ailəsi, ailənin mənəvi istiqamətliliyi və valideynlərin pedaqoji mədəniyyəti, psixoloji ünsiyyət bacarıqları, yəni intellektual, emosional və iradi əlaqələri əhatə edən ailədaxili münasibətlər mühüm rol oynayır.

G.M.Şaşlovaya görə, *"məktəbəqədər yaşdan ibtidai məktəb yaşına keçid dövründə uşaqlar ilə inkişaf işinin təşkili üçün ən uyğun forma, qrup ünsiyyəti şəklində aparılan dərslərdir"* [5]

R.V.Ovçarova özünüdərk quruluşu pozğunluqları olan uşaqlara kömək üçün müxtəlif şüurlu quruluşların inkişafına yönəldilmiş korreksiya proqramı hazırlamışdır. Proqramın məqsədi emosional reaksiya təhriflərini və davranış stereotiplərini aradan qaldırmaq, uşaqla həmyaşıdları arasında tamhüquqlu təmasları yenidən qurmaq və ünsiyyət mövzusu olaraq sosial və pedaqoji baxımdan laqeyd uşağı inkişaf etdirməkdən ibarətdir.

II fəslin 3-cü paraqrafının birinci yarımparaqrafı "**Kiçikyaşlı məktəblilərin məktəbə psixo-pedaqoji adaptasiyasında oyunlar"**

[5] Васильев, В. В. Информационное обеспечение управления общеобразовательной школой / В. В. Васильев. - Воронеж : Изд-во Воронеж, ун-та, -1990.- 140 с.

adlanır. Oyunların tədqiq edilməsi məqsədilə müəyyən fikirlər araşdırıldıqda bu kimi öyrədici resursların əhəmiyyətinin və tədrisdəki yerinin xüsusi vurğulandığının şahidi oluruq. Platon uşağın fiziki və emosional inkişafının birlikdə aparılmasının zəruriliyini vurğulayır, uşaqların əyləncələrinin qarşısını almağın zərərli olduğunu və uşaqların qabiliyyətlərinin oyun vasitəsi ilə kəşf edildiyini bildirir, uşağın oyunla böyüdüyünü düşünürdü.

Partenin təsnifatına əsasən, oyunun mərhələləri aşağıdakılardır :

1. təkbaşına oyun mərhələsi.
2. paralel oyun mərhələsi.
3. kooperativ oyun mərhələsi.
4. öz qanunları olan oyun mərhələsi.

Uşaq oyunları da bu yaşda fərqli olur, daha mükəmməl formalar qazanır, inkişaf edənlərə çevrilir. Məzmunu dəyişir, yeni qazanılan təcrübə ilə zənginləşir. Fərdi obyekt oyunları konstruktiv bir xarakter qazanır, xüsusilə təbiət elmləri sahəsindəki yeni biliklərdən və uşaqların məktəbdəki işlərində əldə etdikləri biliklərdən geniş istifadə edilir. Qrup, kollektiv oyunlar intellektual xarakter daşıyır. Bu yaşda kiçik məktəblinin məktəbdə və evdə kifayət qədər inkişaf oyunları ilə təmin edilməsi və onları tətbiq etməyə vaxtının olması vacibdir.

II fəslin 4-cü paraqrafı "**Təhsildə çətinlik çəkən şagirdlərin məktəbə adaptasiya prosesinin psixo-pedaqoji idarə edilməsi**" adlanır. Öyrənmə çətinliyi olan birinci sinif şagirdləri ilə işləyərkən, sözlərin mənasını aydınlaşdırmaq, düzgün istifadə etmələrini öyrətmək və cümlələri səriştəli qurmağı vurğulamaq lazımdır. Uşağın ümumi məlumatlılığını genişləndirmək lazımdır, lakin hər zaman əyani və təsirli metodlardan istifadə edilməlidir. Uşalğın əlləri ilə görə bilmədiyi və ya toxuna bilmədiyi bir şey haqqında tamamilə şifahi hekayələr onun qəbul etməsini, ümumiyyətlə, çətinləşdirir. Uşaqlar davamlı olaraq etdikləri hər şey haqqında ətraflı danışmalı, niyə və necə etdiklərini izah etməli, gördükləri və hiss etdikləri hər şey haqqında mümkün qədər çox və təfərrüatlı danışmalıdır.

Dissertasiyanın üçüncü və sonuncu fəsli **"Psixo-pedaqoji kommunikasiyanin I sinif şagirdlərinin adaptasiyasina təsiri xüsu-**

**siyyətlərinin təcrübi-eksperimental tədqiqi”** adlanır. **“Eksperimentin məzmunu və təşkili**”adlanan 3-cü fəslin I paraqrafında qeyd edilən xüsusiyyətlərlə bağlı əsas təhlillər yer alır.

Təcrübə işi üç əsas müəyyənedici, formalaşdırıcı, yoxlama mərhələlərində həyata keçirilmişdir.

Tədqiqatın müəyyənləşdirmə və formalaşdırma mərhələlərində birinci siniflərin 216 şagirdi və orta ümumtəhsil məktəblərinin müəllimləri iştirak etmişlər.

Ümumilikdə, təcrübənin müəyyənləşdirilməsi mərhələsində aparılan təcrübə işində 11 müəllim iştirak etmiş, onların hər biri formalaşdırma mərhələsinin proqramının həyata keçirilməsində yaxından iştirak etmişdir.

Tədris və təlim təcrübələrində şagirdlərin fərdi fərqlərini nəzərə almaqla təlim və tədris proseslərinin fərdiləşdirilməsi üçün müəllim - şagird, şagird - şagird, şagird - ailə və müəllim - ailə arasında sağlam ünsiyyət olmalıdır. Müəllimlər üçün sağlam və effektiv ünsiyyət daha vacibdir. Çünki təhsilin məqsədlərinin ən yüksək səviyyədə həyata keçirilməsi və fərdi fərqlərin nəzərə alınması üçün mənbə olan müəllim şagirdləri ilə sağlam və səmərəli ünsiyyət qurmalıdır. Bu səbəbdən müəllimin sağlam və effektiv ünsiyyəti necə təmin edəcəyini bilməsi və bunu sinifdə həyata keçirməsi böyük əhəmiyyət kəsb edir. Müəllim sinifdə öyrənməni təmin etmək və istiqamətləndirməkdən əlavə, ünsiyyət bacarıqlarından səmərəli istifadə etmək zərurətindən də xəbərdar olmalıdır. Müəllim təkcə tərbiyə verən, öyrədən bir şəxs deyil, həm də sinifə nümunə olan bir insan olduğundan, şagirdləri ilə həyata keçirdiyi şifahi və şifahi olmayan ünsiyyət şagirdlərdə son dərəcə təsirli olur.

Sinif müəllimlərinin şagirdlərlə necə ünsiyyət qurması və onun əhəmiyyəti müxtəlif tədqiqatların mövzusu olmuşdur. Olgunun fikrincə, sinif müəllimləri effektiv ünsiyyət mühiti yaratmaq və ünsiyyətdə bərabər imkanlar yaratmaq bacarıqlarında özlərini “qənaətbəxş” hesab edirlər. Bulutun fikrincə, qadın müəllimlərin ünsiyyət bacarıqlarının “effektivlik” və “qənaətbəxşlik” alt ölçülərində kişi müəllimlərə nisbətən daha yüksək orta göstəricilərə malik olduqları müəyyən edilmişdir. Nacara görə, sinif müəllimlərinin ünsiyyət bacarıqlarının “empatiya”, “bərabərlik”, “effektivlik” və

“qənaətbəxşlik” alt ölçülərində qadın müəllimlərin xeyrinə əhəmiyyətli dərəcədə fərqləndiyi müşahidə edilmişdir. “Şəffaflıq” alt ölçüsündə müəllimlərin ünsiyyət bacarıqları cinsinə görə fərqlənməmişdir. Bedurun fikrincə, şəhər mərkəzində işləyən sinif müəllimləri rayon mərkəzində və kəndlərdə işləyən müəllimlərə nisbətən şagirdlərlə ünsiyyətdə özlərini daha müsbət aparırlar.

İbtidai siniflərdə eyni proqram eyni sinif səviyyəsində tədris olunsa da, şagirdlərdə təlimin məqsədlərinin həyata keçirilməsi əyalətlər arasında, əyalət daxilindəki məktəblər arasında və hətta eyni məktəb daxilindəki siniflər arasında dəyişir. Bunun səbəblərindən birinin müəllim-şagird ünsiyyəti olması sinif müəllimlərinin şagirdləri ilə ünsiyyətini ön plana çıxarır.

Tədqiqatın məlumatları Bedur tərəfindən hazırlanmış "Sinif müəllimlərinin şagirdlərlə ünsiyyət üslublarının müəyyən edilməsi" şkalası ilə toplanmışdır. Ölçmə aləti birölçülüdür və 25 maddədən və 5 variantdan (Həmişə, tez-tez, qismən, nadir hallarda və heç vaxt) ibarətdir. Şkalanın Cronbach Alpha əmsalı Bedur tərəfindən 0,85 olaraq müəyyən edilmişdir. Bu araşdırmada Cronbach's Alpha əmsalı 0,74 olaraq tapılmışdır.

**Eksperimentdə iştirak edən müəllimlərin şagirdlərlə ünsiyət üslublarının ölçmə testinin etibarlılıq təhlili**

**Cədvəl 1**

| **Etibarlılıq təhlili** | |
|---|---|
| Cronbach's Alpha | N of Items |
| 0,74 | 11 |




**Şəkil 1.** Eksperimentdə iştirak edən müəllimlərin cins tərkibinin faiz göstəriciləri

Araşdırmanın birinci alt problemi “I sinif müəllimlərinin şagirdlərlə ünsiyyət bacarıqları ilə bağlı fikirləri necədir?” sualıdır. Müəllimlərin şagirdlərlə ünsiyyət bacarıqları ilə bağlı fikirləri “həmişə” cavabı olmaqla 73,8%-dir və bu ən çox seçilən cavabdır. Müəllimlərin şagirdlərlə ünsiyyət bacarıqları ilə bağlı fikirlərinin 1,2%-i “Qismən”, 25%-i “Tez-tez” cavabıdır. Müəllimlərinin şagirdlərlə ünsiyyət bacarıqlarına dair fikirləri Cədvəl 2-də göstərilmişdir.

**Eksperimentdə iştirak edən müəllimlərin şagirdlərlə ünsiyyət bacarıqlarına dair fikirləri (sorğu maddələrinə görə)**

**Cədvəl 2**

| | Suallar | N | $X$ | Sd. | Mənası |
|---|---|---|---|---|---|
| sual4 | Dərsi keçərkən şagirdlərin eşitdiyi səs tonundan istifadə edirəm. | 11 | 4,75 | 0,42 | Həmişə |
| sual6 | Tədris zamanı vurğu və intonasiyaya diqqət yetirirəm. | 11 | 4,66 | 0,52 | |
| sual23 | Şagirdlərlə ünsiyyət qurarkən göz təmasından istifadə edirəm. | 11 | 4,64 | 0,51 | |
| sual1 | Şagirdlərimə kifayət qədər söz verirəm. | 11 | 4,61 | 0,55 | |
| sual3 | Şagirdlərimlə ünsiyyət qurarkən onların fərdi fərqlərinə fikir verirəm. | 11 | 4,58 | 0,54 | |
| sual16 | Gözəl və səlis danışmağa diqqət edirəm | 11 | 4,59 | 0,56 | |
| sual5 | Şagirdlərin daha yaxşı başa düşməsi üçün qısa, aydın və başa düşülən cümlələrdən istifadə edir. | 11 | 4,56 | 0,52 | |
| sual10 | Şagirdlərimdən rəy almağa diqqət edirəm. | 11 | 4,57 | 2,21 | |
| sual11 | Danışmaq istəməyən şagirdləri həvəsləndirirəm. | 11 | 4,55 | 0,52 | |
| sual22 | Bədən dilimlə şifahi dilim arasında uçurum var. | 11 | 4,54 | 0,56 | |
| sual24 | Şagirdlərlə yaxşı ünsiyyət qurmaq üçün oturacaqların düzülməsinə fikir verirəm. | 11 | 4,51 | 0,56 | |
| sual9 | Şagirdlərimə hisslərini ifadə etmək imkanı verirəm. | 11 | 4,51 | 0,61 | |
| sual21 | Verdiyim mesajları bədən dilimlə öyrənə biləcəyimi anlayır. | 11 | 4,46 | 0,61 | |
| Sual12 | Şagirdlərimin gördüyü işləri qiymətləndirirəm və rəy bildirirəm. | 11 | 4,46 | 0,60 | |

**Cədvəl 2-nin ardı**

| | | | | | |
|---|---|---|---|---|---|
| Sual15 | Şagirdlərimlə ünsiyyət qurarkən birdən çox duyğu orqanına müraciət etməyə çalışıram. | 11 | 4,43 | 0,61 | |
| sual2 | Şagirdlərimi empatiya ilə dinləyirəm. | 11 | 4,42 | 0,61 | Tez-tez |
| sual9 | Şagirdlərlə fərdi görüşlər keçirirəm. | 11 | 4,37 | 0,63 | |
| sual8 | Şagirdlərin bir-birinə yaxınlaşmasına kömək etmək üçün şagird fəaliyyətlərinə maraq göstərirəm. | 11 | 4,34 | 0,62 | |
| sual17 | Şagirdlərim şəxsi mövzularını mənimlə bölüşürlər | 11 | 4,33 | 0,70 | |
| sual13 | Şagirdlərin reaksiyalarını anlamağa çalışıram. | 11 | 4,30 | 0,61 | |
| sual25 | Şagirdlərə bir mövzuda nəyin doğru və nəyin yanlış olduğunu söyləmək əvəzinə, onlara öz fikirlərini formalaşdırmağa imkan verirəm | 11 | 4,28 | 0,72 | |
| sual7 | Səhv davranış halında şagirdi deyil, davranışı qiymətləndirirəm. | 11 | 4,27 | 0,68 | |
| sual8 | Hisslərimi şagirdlərlə bölüşürəm | 11 | 4,23 | 0,76 | |
| sual14 | Şagirdlər ədalətli davranmadığımı düşünəndə reaksiya verirlər | 11 | 4,19 | 0,82 | |
| sual20 | Bəzən şagirdə toxunaraq da danışıram. | 11 | 4,12 | 0,87 | |

Sinif müəllimləri şagirdlərlə ünsiyyət bacarıqları ilə bağlı ən yüksək razılıq balı “Dərsi öyrədərkən şagirdlərin eşitdiyi səs tonundan istifadə edirəm” (X = 4.76) bəndinə “Həmişə” deyiblər. Sinif müəllimləri şagirdlərlə ünsiyyət bacarıqları ilə bağlı ən aşağı razılıq balı “Şagirdlərimlə bəzən onlara toxunaraq danışıram” (X = 4.11) maddəsinə verib və “Tez-tez” deyiblər.

**Eksperiment iştirakçıları üzrə cinsiyyət dəyişəninə aid təsviri statistika**

**Cədvəl 3**

| | Tezlik | Faiz | Etibarlı faiz | Məcmu faiz |
|---|---|---|---|---|
| Oğlan | 119 | 55,1 | 55,1 | 55,1 |
| Qız | 97 | 44,9 | 44,9 | 100,0 |
| Cəmi | 216 | 100,0 | 100,0 | |




**Şəkil 2** Eksperiment iştirakçıları üzrə cins tərkibinin faiz göstəriciləri

Yuxarıda təsvir olunan Cədvəl 3 və Şəkil 2-ə görə, eksperimentdə iştirak edən I sinif şagirdlərinin 55%-i oğlan (119 nəfər), 45%-i (97 nəfər) isə qızlardır.

**Eksperiment iştirakçıları üzrə məktəb və sinif dəyişəninə aid təsviri statistika**

**Cədvəl 4**

| | | | | Tezlik |
|---|---|---|---|---|
| məktəb | 141 | sinif | 1ç | 24 |
| | | | 1a | 27 |
| | 147 | sinif | 1a | 28 |
| | | | 1b | 18 |
| | 20 | sinif | 1c | 27 |
| | 8 | sinif | 1a | 25 |
| | | | 1b | 18 |
| | Lerik rayonu Bobla kənd orta məktəb | sinif | 1a | 18 |
| | İsmayıllı rayonu Mücühəftəran kənd tam orta məktəb | sinif | 1a | 10 |
| | Quba rayonu Qırmızı qəsəbə 1 nömrəli tam orta məktəb | sinif | 1a | 11 |
| | Şabran rayonu Tofiq Abbasov adına 1 nömrəli tam orta məktəb | sinif | 1a | 10 |

Cədvəl 4-dən məlum olur ki, eksperimentdə iştirak edən I sinif şagirdlərinin 51 nəfəri 141 №-li məktəbin 1a, 1ç sinif şagirdləri, 46 nəfəri 147 №-li məktəbin 1a, 1b sinif şagirdləri, 27 nəfəri 20 №-li məktəbin 1c sinif şagirdləri, 43 nəfəri 8 №-li məktəbin 1a, 1b sinif şagirdləri, 18 nəfəri Lerik rayonu Bobla kənd orta məktəbinin 1a sinif şagirdləri, 10 nəfəri

İsmayıllı rayonu Mücühəftəran kənd tam orta məktəbin 1a sinif şagirdləri, 11 nəfəri Quba rayonu Qırmızı qəsəbə 1 nömrəli tam orta məktəbinin 1a sinif şagirdləri, 10 nəfəri Şabran rayonu Tofiq Abbasov adına 1 nömrəli tam orta məktəbin 1a sinif şagirdləridir.

**"Eksperimentin gedişində I sinif şagirdlərinin adaptasiya xüsusiyyətlərinin müəyyənləşdirilməsi"** adlanan ikinci paraqrafda kiçik məktəblilərin motivasiya növünü müəyyən etmək üçün "Mənim sinfim" proyektiv metodologiyasından (müəllif A.A.Leskova) istifadə edilmişdir. Bu texnikanın seçimi, sosial-psixoloji praktikada ənənəvi olaraq istifadə olunan şkalalar, testlər və anketlərlə işləyərkən uşağın çətinliklərlə üzləşməsi ilə əlaqədardır, çünki oxunan məlumatları hələ tam oxumaq və qavramaq iqtidarında deyildir. Bu texnika, forma uşaqlar üçün başa düşülən bir şəkil ilə təqdim olunur. Metod forması Şəkil 3 ə təqdim olunur.




**Şəkil 3** "Mənim sinfim" metodu

Uşaqlardan sinifin şəklinə diqqətlə baxmaq və onun bu şəkildəki yeri haqqında düşünmələri xahiş olunur. Eyni zamanda, özləri ilə əlaqəli insanı yaşıl qələmlə rəngləmələri tapşırılır.

Bu üsul birinci sinif şagirdində 4 növ motivasiyanı müəyyən etməyə imkan verir: oyun, təlim, sosial və məktəbdə öyrənmə vəziyyətlərindən qaçmaq. Təlim və sosial motivasiya birinci sinif şagirdinin uğurlu və müsbət adaptasiyasının əksidir. Oyun motivasiyası və məktəbə getməmək üçün motivasiya uşağın məktəbdəki dezadaptasiyasının göstəriciləridir.

Nəticələrin təhlili aşağıdakı şəkildə aparılır:

1. "Müəllimdən uzaqda tək" mövqeyi uşağın emosional olaraq qeyri-funksional mövqeyidir və sinifdə olmağa uyğunlaşmaqda çətinlikləri göstərir. Məktəb vəziyyətindən yayınma səbəbi.

2. Cüt dayanan fiqurlarla özünü eyniləşdirmək, birlikdə oynamaq - uşağın qənaətbəxş sosial-psixoloji mövqeyi - sosial motivasiyası.

3. Müəllimin yanında bir yer (bu vəziyyətdə müəllim uşaq üçün əhəmiyyətli bir şəxsdir və subyekt özü özünü müəllim tərəfindən qəbul edilmiş şagird kimi tanıdır – təlim motivasiyası).

4. Oyun mövqeyi (məktəb motivasiyasına uyğun gəlmir).

Diaqnoz zamanı əldə edilən nəticələr Cədvəl 5-də təqdim olunur.

**A.A.Leskovanın "Mənim sinfim" testi üzrə tədqiqatda iştirak edən I sinif şagirdlərinin motivasiya tipinin təsviri statistikası**

**Cədvəl 5**

| Motivasiya | Tezlik | Faiz | Etibarlı faiz | Məcmu faiz |
|---|---|---|---|---|
| Məktəbdən yayınma | 54 | 25,0 | 25,0 | 25,0 |
| Oyun | 54 | 25,0 | 25,0 | 50,0 |
| Sosial | 62 | 28,7 | 28,7 | 78,7 |
| Təlim | 46 | 21,3 | 21,3 | 100,0 |
| Cəmi | 216 | 100,0 | 100,0 | |




**Şəkil 4** A.A.Leskovanın "Mənim sinfim" testi üzrə tədqiqatda iştirak edən I sinif şagirdlərinin motivasiya tipinin sxematik təsviri

Cədvəl 5-dən göründüyü kimi, tədqiqat iştirakçılarının 25%-nin məktəbdən yayınma motivasiyası, 25%-nin oyun motivasiyası, 28,7%-nin sosial motivasiyası, 21,3%-nin təlim motivasiyası vardır. Bu nəticələr onu deməyə əsas verir ki, tədqiq olunan məktəblərdəki I sinif şagirdlərinin təlim fəaliyyətinə marağı kifayət qədər yüksək

deyil. Bunun əksinə olaraq, testin nəticələri göstərir ki, uşaqlar daha çox sosial əlaqələrə üstünlük verirlər.

I sinif şagirdlərinin emosional komponentini ölçdükdən sonra A.D.Andreevanın "Öyrənmə motivasiyası və öyrənməyə emosional münasibət" adlı anket sorğusu şagirdlər arasında valideynlərin müşaiyəti ilə keçirilmişdir. Öyrənmə motivasiyasının və öyrənməyə emosional münasibətin diaqnostikası üçün təklif olunan metod Ç.D.Spilberqin anketinə əsaslanır, idrak fəaliyyəti, narahatlıq və qəzəb səviyyələrini cari vəziyyətlər və şəxsiyyət xüsusiyyətləri kimi öyrənməyə yönəlmişdir (State-Trait Personality Inventory). Rusiyada istifadə üçün öyrənməyə emosional münasibətləri öyrənmək üçün sorğu vərəqəsinin modifikasiyası A. D. Andreeva tərəfindən həyata keçirilmişdir.

Formanın birinci səhifəsində mövzu ilə bağlı bütün lazımi məlumatlar və təlimatlar var. Tədqiqatın nəticələri də burada sadalanır və psixoloqun rəyi yerləşdirilir. Metodologiyanın mətni növbəti səhifələrdə təqdim olunur.

Texnika yuxarı sinif şagirdləri üçün üzbəüz - bütün sinif və ya bir qrup şagird ilə həyata keçirilir. Lakin tədqiqat I sinif şagirdlərini əhatə etdiyi üçün 7-ci sualı çıxmaq şərtilə 39 sual valideyn müşaiyəti ilə şagirdlər tərəfindən cavablandırılmışdır.

Ümumi xal -60 ilə +60 arasında dəyişə bilər. Öyrənmə motivasiyasının aşağıdakı səviyyələri fərqləndirilir:

I səviyyə - öyrənmə üçün idrak motivasiyasının açıq üstünlüyü və ona müsbət emosional münasibət ilə məhsuldar motivasiya.

II səviyyə - məhsuldar motivasiya, öyrənməyə müsbət münasibət, sosial standartlara uyğunluq.

III səviyyə idrak motivasiyasının bir qədər azaldığı orta səviyyədir.

IV səviyyə - motivasiyanın azalması, "məktəb cansıxıcılığı" təcrübəsi, öyrənməyə mənfi emosional münasibət.

V səviyyə - öyrənməyə kəskin mənfi münasibət. Səviyyələrə görə balların paylanması cədvəldə təqdim olunur.

**Öyrənmə motivasiyasının səviyyələr üzrə balları**

**Cədvəl 6**

| Səviyyə | Balların cəmi |
|---|---|
| I | 45 — 60 |
| II | 29 — 44 |
| III | 13 — 28 |
| IV | (–2) — +12 |
| V | (–3) — (–60) |

## A.D.Andreevanın "Öyrənmə motivasiyası və öyrənməyə emosional münasibət" testi üzrə dəyişənlərin təsviri statistikası

**Cədvəl 7**

| Səviyyə | Tezlik | Faiz | Etibarlı faiz | Məcmu faiz |
|---|---|---|---|---|
| I | 62 | 28,7 | 28,7 | 28,7 |
| II | 46 | 21,3 | 21,3 | 50,0 |
| III | 56 | 25,9 | 25,9 | 75,9 |
| IV | 52 | 24,1 | 24,1 | 100,0 |
| Cəmi | 216 | 100,0 | 100,0 | |

Cədvəl 7-də A.D.Andreevanın "Öyrənmə motivasiyası və öyrənməyə emosional münasibət" testinin nəticələri göstərilmişdir. Cədvəldən görünür ki, eksperiment iştirakçılarının öyrənmə motivasiyası və emosional fonu 8,7%-i "I səviyyə"yə, 21,3%-i "II səviyyə"yə, 25,9%-i "III səviyyəyə", 24,1%-i "IV səviyyə"yə uyğun gəlir, "V səviyyə" isə müşahidə edilməmişdir. Bu nəticələr onu deməyə əsas verir ki, tədqiqatda iştirak edən I sinif şagirdlərinin əksəriyyətinin emosional fonu müsbət qiymətləndirilir.

Beləliklə, təsviri statistik məlumatlar onu göstərir ki, "Psixo-pedaqoji kommunikasiya" proqramı həyata keçirilməzdən əvvəl tədqiqatın aparıldığı məktəblərin I sinif şagirdlərinin adaptasiyası orta səviyyədə olmuşdur. Tədqiqatda iştirak edən I sinif şagirdlərinin əksəriyyətində məktəbə adaptasiyada çətinliklər və təlim motivasiyasında azalma müşahidə edilmişdir. Bundan əlavə, yüksək sosial motivasiya və müsbət emosional fon psixoloji-pedaqoji ünsiyyət proqramlarının effektivliyinin artırılması üçün müsbət zəmin yaradır.

**“Psixo-pedaqoji kommunikasiya” proqramı vasitəsilə adaptasiya prosesinin psixo-pedaqoji müşayiəti”** adlı 3-cü paraqrafda eksperimentin müəyyənedici mərhələsində əldə edilən nəticələr təcrübənin növbəti mərhələsində - formalaşdırıcı psixoloji və pedaqoji işlərin planlaşdırılması və təşkili üçün əsas yaranmışdır.

Eksperimentin formalaşdırıcı mərhələsinin məqsədi təcrübənin müəyyənləşdirmə mərhələsinin nəticələrini rəhbər tutaraq uşaqlar və müəllim arasındakı ünsiyyətin xüsusiyyətlərinə əsaslanan bir təhsil proqramı hazırlamaq və birinci sinif şagirdlərinin məktəbə adaptasiya prosesinin psixoloji və pedaqoji dəstəyinə yönəlmiş bir təhsil proqramı yaratmaq idi.

1) ilk növbədə, uşaqların ünsiyyət qabiliyyətlərinin inkişafına dəstək vermək, bununla da məktəbə emosional səviyyədə intensiv adaptasiya prosesini asanlaşdırmağın tətbiqi və həyata keçirilməsi:

2) ikincisi, başlıca məqsəd kiçik məktəblilərin adaptiv qabiliyyətlərinin formalaşması üçün psixoloji və pedaqoji dəstəyin inkişafı yolu ilə uyğunlaşma və təhsilin başlanğıc dövründə uşaqlar tərəfindən müvəffəq (keçmə) keçməsi riskini azaltmağa kömək etmək idi.

Psixoloji-pedaqoji proqram aşağıdakı şəkildədir.

Proqramın məqsədi: Effektiv psixo-pedaqoji kommunikasiya vasitəsilə I sinif şagirdlərinin təhsil mühitinə adaptasiyasına şərait yaratmaq.

Proqramın hədəf auditoriyası: Müəllimlər, psixoloqlar, I sinif şagirdləri və onların valideynləridir.

Proqramın müddəti: Proqram 3 Ay (12 həftə) ərzində keçirilir.

Proqramdan gözlənilən nəticələr aşağıda sadalanmışdır:

- şagirdlər və müəllimlər arasında əlaqələrin yaxşılaşdırılması.
- sosial-emosional bacarıqların inkişaf etdirilməsi.
- Məhsuldarlığın artması və akademik hazırlıq.

Proqramın məqsədləri aşağıdakılardır:

- Şagirdlər və müəllimlər arasında emosional bağların dərinləşdirilməsi.
- Təhlükəsiz və dəstəkləyici sinif mühitinin yaradılması.
- Şagirdlərdə özünüifadə və özünə inamın təşviq edilməsi.

- Valideynlərin məktəb fəaliyyətlərində fəal iştirakını təşviq etmək.
Proqramın icra mərhələləri
1.Hazırlıq (1-ci həftə)
- Müəllimlər və valideynlər üçün brifinq sessiyaları.
- Sinifdə emosional cəhətdən təhlükəsiz və estetik cəhətdən xoş bir mühit yaratmaq.
2. Tədbirə əsaslanan iştirak (2-10-cu həftələr)
- Ünsiyyət, komanda işi və emosional ifadəyə diqqət yetirən həftəlik sessiyalar.
- Fəaliyyətlərə oyunlar, hekayələr, incəsənət və musiqi buraya daxildir.
3. Qiymətləndirmə və əks əlaqə (11-12-ci həftələr)
- Şagirdlərin davranışını və iştirakını müşahidə etmək.
- Müəllimlər, valideynlər və şagirdlərlə rəy sessiyalarının keçirilməsi.

**Proqramda nəzərdə tutulan fəaliyyətlər**
**Cədvəl 8**

| Həftə | Fəaliyyət | Təsvir |
|---|---|---|
| 1 | Emalatxanaya xoş gəldin | Buz qırma fəaliyyətləri, sinif qaydaları ilə tanışlıq, müəllimlər və valideynlər üçün görüş və salamlaşma. |
| 2 | Ekspressiv rəsm | Şagirdlər emosiyaları araşdırmaq və əlaqəni inkişaf etdirmək üçün xoşbəxt olduqları məkanları çəkirlər. |
| 3 | Hekayə dairəsi | Cəsarət və xeyirxahlığı vurğulayan hekayə paylaşılır, sonra müzakirə aparılır. |
| 4 | Komanda qurmaq oyunları | Komanda işini və ünsiyyəti təşviq etmək üçün "Qüllə tikmək" kimi fəaliyyətlər. |
| 5 | Rollu oyunu ssenariləri | Məktəb ssenariləri vasitəsilə rollu oyunlarla sosial bacarıqları tətbiq edilir. |
| 6 | Emosiyalar səssiz filmi | Şagirdlər emosiyaları nümayiş etdirir, onlara hisslərini tanımağa və idarə etməyə kömək edir. |
| 7 | Valideyn-müəllim-şagird əməkdaşlığı günü | Birlik və inam yaratmaq üçün sinif divarının yaradılması kimi birgə fəaliyyətlər. |

**Cədvəl 8-in ardı**

| | | |
|---|---|---|
| 8 | Musiqi və hərəkət | Ritmi, koordinasiyanı və həmyaşıd əlaqələrini inkişaf etdirmək üçün oxumaq və rəqs etmək. |
| 9 | Çətin problemlərin həlli | Sadə tapmacalar və ya birgə səylər tələb edən tapşırıqlarla məşğul olmaq. |
| 10 | Minnətdarlıq jurnalları | Şagirdlər hər gün minnətdar olduqları bir şeyi yazırlar və ya çəkirlər. |
| 11 | Adaptasiya sorğusu | Müəllimlər və psixoloqlar müşahidə siyahılarından istifadə edərək şagirdin irəliləyişini qiymətləndirirlər. |
| 12 | Refleksiya və qeydetmə | Uğurları kiçik bir sinif tədbiri ilə qeyd etmək və iştirakçılardan rəy toplamaq. |

Qiymətləndirmə metodları müşahidə yoxlama siyahıları, fikir toplamaq üçün şagirdlər, müəllimlər və valideynlər üçün proqramdan əvvəl və sonrakı sorğular, şagirdlərin iştirakını izləyən qeydlərdir.

Vizual və köməkçi materiallar

Şəkillər:

- Qarşılama siniflərinin təşkili
- Duyğuları təmsil edən vizual alətlər (məsələn, xoşbəxt, kədərli, qəzəbli).
- Fəaliyyətlər üçün təlimat kartları.
- Valideynlər və müəllimlər üçün effektiv ünsiyyət məsləhətləri olan infoqrafika.

Proqramın həyata keçirilməsi: Məktəb direktorları tərəfindən təşkil edilən icraçı qrup, tədbirlərin planlaşdırılmasını təmin edir və onların düzgün həyata keçirilməsinə cavabdehdir. Məktəb məsləhətçiləri bu komandaya müəllimlərin sinif fəaliyyətini praktiki şəkildə necə həyata keçirməli və dərslərin ilk həftəsində müəllimlərlə işləməyə davam etməli olduqlarını göstərir. Bu fəaliyyətlərin əksəriyyətinin Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edildiyi kimi məktəbə uyğunlaşma həftəsində həyata keçirilməsi gözlənilsə də, müəllimlər tədris ili ərzində sinif və ya şagird ehtiyaclarına uyğun olaraq proqramın üç komponenti ilə bağlı fəaliyyətlərdən istifadə edə bilərlər. Proqramı həyata keçirdikdən sonra hər bir məktəbdə uyğunlaşma qrupu proqramı qiymətləndirir və nazirliyə hesabat hazırlayır.

Məktəbin tanınması forması və Məktəb xəritəsi inzibatçılar tərəfindən hazırlanır və təhsil prosesi başlamazdan əvvəl valideynlərə verilir. Valideynlər övladlarının ehtiyaclarına uyğun olaraq valideyn fəaliyyət kitabından fəaliyyətlər seçmək və onları uşaqları ilə birlikdə həyata keçirmək üçün məsuliyyət daşıyırlar. Müəllimlər də şagirdlərinin ehtiyaclarına uyğun olaraq məktəb məskunlaşma fəaliyyətlərini seçir və bu fəaliyyətləri xüsusilə məktəbin ilk həftəsində həyata keçirirlər. Onlar həmçinin dərslərin ilk həftəsində məktəb məsləhətçilərinin dəstəyi ilə məktəbə uyğunlaşma tədbirləri həyata keçirirlər.

**"Eksperimentin nəticələrinin təhlili" adlanan III fəslin son, dördüncü paraqrafında** Təhsil proqramının effektivliyini yoxlamaq üçün təkrar testlər keçirilərək müqayisə aparılmışdır. Bunun üçün dəyişənlərin normal paylanıb-paylanmadığını bilmək üçün Kolmoqorov-Smirnov və Şapiro-Vilk testi aparılmışdır.

**A.A.Leskovanın "Mənim sinfim" testinin eksperimentdən əvvəl və sonrakı göstəricilərinin normallıq testi**

**Cədvəl 9**

| Normallıq testləti | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Kolmoqorov-Smirnov | | | Şapiro-Vilk | | |
| | Statistika | Sərbəstlik dərəcəsi | p | Statistika | Sərbəstlik dərəcəsi | p |
| Mənim sinfim pretest | ,197 | 216 | ,000 | ,854 | 216 | ,000 |
| Mənim sinfim posttest | ,315 | 216 | ,000 | ,826 | 216 | ,000 |

Cədvəl 9-da təqdim edilən nəticələr Kolmoqorov-Smirnov testi və Şapiro-Vilk normallıq testinin nəticələrini göstərir. Hər iki test üzrə dəyişənlər (mənim sinfim pretest və "mənim sinfim posttest) üçün p = 0,000 olduğu üçün paylanmaların normal paylanmadan əhəmiyyətli dərəcədə fərqli olduğunu və məlumatların normal paylanmadığını göstərir. Normal paylanma müşahidə edilməyi üçün qeyri-parametrik

testin keçirilməsi məqsədəuyğundur. Bunun üçün Vilkokson qeyri-parametrik testindən istifadə edilmişdir.

### A.A.Leskovanın “Mənim sinfim” testinin eksperimentdən əvvəl və sonrakı göstəricilərinin Vilkokson testi ilə müqayisəsi

**Cədvəl 10**

| Ranqlar | | | | |
|---|---|---|---|---|
| | | N | Orta ranq | Ranqların cəmi |
| Mənim sinfim posttest Mənim sinfim pretest | Mənfi ranq | 16[a] | 18,00 | 288,00 |
| | Müsbət ranq | 139[b] | 44,51 | 2715,00 |
| | Bərabər | 61[c] | | |
| | p | 0,000 | | |
| a. Mənim sinfim posttest < Mənim sinfim pretest | | | | |
| b. Mənim sinfim posttest > Mənim sinfim pretest | | | | |
| c. Mənim sinfim posttest = Mənim sinfim pretest | | | | |

Cədvəl 10-dan görünür ki, 139 halda posttest nəticələri pretest (16) nəticələrindən yüksək çıxmış, 61 halda isə eyni qalmışdır. P dəyərinə nəzər saldıqda $p<0,05$ olduğu üçün bu nəticələr statistik olaraq əhəmiyyətlidir. Bu da onu deməyə əsas verir ki, tətbiq olunan psixo-pedaqoji proqram nəticələrə müsbət təsir etmişdir.

### L.M. Kovalevanın I sinif şagirdlərinin adaptasiya səviyyəsinin ölçülməsi testinin eksperimentdən əvvəl və sonrakı göstəricilərinin normallıq testi

**Cədvəl 11**

| Normallıq testləri | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Kolmoqorov-Smirnov | | | Şapiro-Vilk | | |
| | Statistika | Sərbəstlik dərəcəsi | p | Statistika | Sərbəstlik dərəcəsi | p |
| Dezadaptasiya pretest | ,224 | 216 | ,000 | ,804 | 216 | ,000 |
| Dezadapyasiya posttest | ,485 | 216 | ,000 | ,504 | 216 | ,000 |

Cədvəl 11-də göstərilən nəticələrə görə, testlər üzrə dəyişənlər (“Dezadaptasiya pretest” və “Dezadaptasiya posttest”) üçün p = 0,000 olduğu üçün dəyişənlərin normal paylanmamışdır. Buna görə də, qeyri-parametrik Vilkokson testindən istifadə edilmişdir.

**L.M. Kovalevanın I sinif şagirdlərinin adaptasiya səviyyəsinin ölçülməsi testinin eksperimentdən əvvəl və sonrakı göstəricilərinin Vilkokson testi ilə müqayisəsi**

**Cədvəl 12**

| Ranqlar | | | | |
|---|---|---|---|---|
| | | N | Orta ranq | Ranqların cəmi |
| Dezadapyasiya posttest Dezadaptasiya pretest | Mənfi ranq | 146[a] | 79,06 | 11543,00 |
| | Müsbət ranq | 8[b] | 49,00 | 392,00 |
| | Bərabər | 62[c] | | |
| | p | 0,000 | | |
| a. Dezadapyasiya posttest < Dezadaptasiya pretest | | | | |
| b. Dezadapyasiya posttest > Dezadaptasiya pretest | | | | |
| c. Dezadapyasiya posttest = Dezadaptasiya pretest | | | | |

Yuxarıda göstərilən cədvəldən məlum olur ki, mənfi ranqların sayı müsbət ranqların sayından xeyli çoxdur (Cədvl 12.). Belə 146 halda dezadaptasiya səviyyəsi aşağı düşmüşdür. Bərabər nəticələrin sayı isə 62-dir, yəni 62 halda heç bir dəyişiklik baş verməmişdir. P dəyəri 0,05-dən aşağı olduğu üçün bu nəticələr statistic cəhətdən əhəmiyyətlidir. Bu da onu deməyə əsas verir ki, tətbiq olunan psixo-pedaqoji kommunikasiya proqramı böyük təsir gücünə malik olmuşdur.

**A.D.Andreevanın "Öyrənmə motivasiyası və öyrənməyə emosional münasibət" testinin eksperimentdən əvvəl və sonrakı göstəricilərinin normallıq testi**

**Cədvəl 13**

| Normallıq testləri | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Kolmoqorov-Smirnov[a] | | | Şapiro-Vilk | | |
| | Statistika | Sərbəstlik dərəcəsi | p | Statistika | Sərbəstlik dərəcəsi | p |
| Emosional münasibət pretest | ,185 | 216 | ,000 | ,847 | 216 | ,000 |
| Emosional münasibət posttest | ,232 | 216 | ,000 | ,801 | 216 | ,000 |

Cədvəl 13-də göstərilən nəticələrə görə, testlər üzrə dəyişənlər ("Emosional münasibət pretest" və "Emosional münasibət posttest") üçün p = 0,000 olduğu üçün dəyişənlərin normal paylanmamış və bu səbəbdən, qeyri-parametrik Vilkokson testi aparılmışdır.

**A.D.Andreevanın "Öyrənmə motivasiyası və öyrənməyə emosional münasibət" testinin eksperimentdən əvvəl və sonrakı göstəricilərinin Vilkokson testi ilə müqayisəsi**

**Cədvəl 14**

| Ranqlar | | | | |
|---|---|---|---|---|
| | | N | Orta ranq | Ranqların cəmi |
| Emosional münasibət posttest - Emosional münasibət pretest | Mənfi ranq | 0[a] | ,00 | ,00 |
| | Müsbət ranq | 216[b] | 108,50 | 23436,00 |
| | Bərabər | 0[c] | | |
| | p | 0,000 | | |
| a. Emosional münasibət posttest < Emosional münasibət pretest | | | | |
| b. Emosional münasibət posttest > Emosional münasibət pretest | | | | |
| c. Emosional münasibət posttest = Emosional münasibət pretest | | | | |

Cədvəl 14-dən məlum olur ki, mənfi ranqların sayı 0, müsbət ranqların sayı isə 216-dır. Bu o deməkdir ki, tədqiqata cəlb olunan bütün I sinif şagirdlərində öyrənməyə motivasiya və öyrənməyə emosional 100% olmuşdur. Burada P dəyəri 0,05-dən aşağı olduğu üçün bu nəticələr statistik cəhətdən əhəmiyyətlidir. Bütün deyilənlər onu deməyə əsas verir ki, tətbiq olunan psixo-pedaqoji kommunikasiya proqramının təsiri böyük olmuşdur.

Ədəbiyyatın nəzəri təhlili və apardığımız tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə imkan verir:

Yuxarıda qeyd edilənlərə əsasən, birinci sinif şagirdlərinin məktəbə pedaqoji adaptasiya probleminin həll edilməsi, əhəmiyyətli və aktual məsələ kimi gündəmə gəlir. Bu, bir tərəfdən, uşağın məktəbə pedaqoji adaptasiyası ilə əlaqəli dövrün mürəkkəbliyi ilə, digər tərəfdən, cari problemin həlli üçün valideynlərdə və müəllimlərdə lazımi psixoloji və pedaqoji biliklərin olmaması ilə müəyyən edilir.

Birinci sinif şagirdlərinin məktəbə adaptasiyasının psixo-pedaqoji əsasları ilə bağlı ədəbiyyatın nəzəri təhlili və apardığımız tədqiqatın yekununa əsasən aşağıdakı ümumi nəticələrə gəldik.

1. Pedaqoji-psixoloji ədəbiyyatın nəzəri təhlili nəticəsində məlum oldu ki, birinci sinif şagirdlərin məktəbə adaptasiya problemi tədqiqatçıların diqqətini cəlb edərək öyrənilmişdir. Ayrı-ayrı dövrlərdə şagirdlərin məktəbə adaptasiya probleminin tədqiq olunması onu göstərir ki, hər zaman problem aktual olub və ona fərqli istiqamətlərdə yanaşılıb, yalnız problemlə yanaşma tərzləri və metodologiya müxtəlifdir.
2. Məktəbə uyğunlaşma mərhələsi keçid mərhələsidir və bunun nəticəsində uşağın hər bir nüana qarşı psixoloji həssaslığı son dərəcə artır. Bu dövrdə uşaqlar öz yeni sosial mövqelərini ən intensiv şəkildə dərk edirlər və bu mövqe onlarda uzun illər boyunca tədris işinə, müəllimlər və sinif yoldaşları ilə ünsiyyətə və məktəb mühitinə münasibətlərini müəyyən edən təcrübəni inkişaf etdirir. Məktəblinin inkişaf yolunun hansı istiqamətdə aparılması, məktəb mühitində təhsil və ünsiyyət qurmağın təməlinin uğurlu qoyulub-qoyulmaması, uşağın sosial statusunun artıb-artmaması, əsasən, yetkinlərdən: valideynlər, müəllimlər, tərbiyəçilər, məktəb psixoloqlarından asılıdır.
3. Yerinə yetirilmiş dissertasiyada müasir elmdə aparıcı yanaşmaların əsas müddəalarına əsaslanaraq, birinci sinif şagirdlərinin məktəbə uyğunlaşma prosesinin psixo-pedaqoji dəstək problemini ortaya qoyan əsas anlayışlar təhlil olunur.
4. İbtidai məktəb yaşındakı uşaqların məktəb həyatına düzgün adaptasiyası uşağın təhsilinin və şəxsi rifahının müvəffəqiyyətinin açarıdır. Məktəbə uyğunlaşma dövrü məktəblilərin həyat və fəaliyyətlərinin xüsusi təşkilini tələb edir. Məktəb tələblərinə, normalarına və sosial münasibətlərinə uyğun tərbiyə edilən uşaq ən çox adaptasiya edilmiş hesab edilir.
5. Adaptasiya mexanizmləri fərdin ətraf mühitlə əlaqəsini nəzərə alan bütün mühüm anlayışlarda əsas rolunu oynayır. Eyni zamanda, adaptasiyanın əsas komponentləri (psixoloji və pedaqoji) bir-biri ilə uyğunlaşdırılmalı və fəaliyyətin məqsədlərini və onlara nail olmağın məqbul yollarını müəyyənləşdirməlidir.

6. Psixoloji və pedaqoji biliklərin paradiqmatik əsaslarının öyrənilməsinə yönələn tədqiqat probleminin nəzəri təhlili "pedaqoji ünsiyyət" anlayışını konkretləşdirməyə və onun strukturunu müəyyənləşdirməyə imkan verir.
7. Müxtəlif məktəblərin fikirlərini ümumiləşdirməklə qeyd etmək olar ki, şagirdin məktəbə adaptasiya prosesinin daha uğurlu keçməsinə kömək edən sosial-kommunikativ səriştə kiçik məktəblilərin uyğunlaşma qabiliyyətlərinin baza əsası kimi vurğulanır və pedaqoji ünsiyyəti pedaqoji prosesin vacib və ayrılmaz hissəsidir.
8. Məktəbə yeni başlayan şagirdlərdə müşahidə olunan "7 yaş böhranı" zamanı diqqət çəkən ziddiyyətlər və müvafiq yaş dövrünün çətinlikləri uşağın məktəbə adaptasiyasına təsirsiz ötüşmür. Tədqiqat nəticəsində məlum oldu ki bu dövrdə şagirdlərin müəllim, valideyn və yoldaşları ilə münasibətləri daha mürəkkəb və obyektiv xarakter daşıyır.
9. Müşahidə və təhlillər göstərdi ki, təhsildə çətinlik çəkən şagirdlərin hazırlıq dərəcəsi, qısacası şagirdlərin intellekt səviyyəsi uğurlu adaptasiyaya və dis adaptasiyaya təsir göstərən başlıca amillərdəndir.
10. Aparılan tədqiqat nəticəsində məlum oldu ki, şagirdlərin öyrənmə motivasiyası və öyrənməyə emosional münasibət uğurlu adaptasiyanın həyata keçirilməsində mühüm mühüm rol oynayır.
11. Tədqiqat nəticəsində o da məlum oldu ki, müəllimin şagird kollektivi və valideynlərlə apardığı işlər birinci sinfə uğurlu adaptasiyanın təməlində durur.
12. Təcrübə baxımından təqdim olunan qanunauyğunluqlara müvafiq olaraq, uşaqların məktəbə adaptasiya prosesi üçün psixoloji və pedaqoji dəstəyi təmin etməyi hədəfləyən "Psixo-pedaqoji kommunikasiya" proqramı vasitəsilə adaptasiya prosesinin psixo-pedaqoji müşayiəti öyrənilmiş, yerli şəraitə uyğunlaşdırılaraq sınaqdan keçirilmişdir. Proqramının tətbiqi nəticəsində ibtidai sinif şagirdlərinin uyğunlaşma prosesi zamanı əhəmiyyətli dəyişikliklər diqqət çəkmişdir.

Psixoemosional stres səviyyəsinin azalması; özünə hörmət, özünə inam, yaradıcılıq potensialının artması; yeni şərtlərə daha yaxşı uyğunlaşma; həmyaşıdları və müəllimləri ilə daha rahat ünsiyyətin qurulması müşahidə olunmuşdur.

Birinci sinif şagirdlərinin məktəbə uyğunlaşmasını asanlaşdırmaq məqsədilə ibtidai sinif müəllimi tərəfindən işin uğurlu təşkili üzrə aşağıdakı tövsiyyələrə verilmişdir:

- yüksək səviyyədə adaptasiyanın formalaşması oyun, yaradıcı faliyyət növlərinin birləşməsini əhatə edir;
- adaptasiyada səmərəliliyə nail olmaq üçün uşaqlara qarşı müsbət emosional münasibət formalaşdırmaq lazımdır;
- altı yaşlı uşaqların fəaliyyətinin idarəedilməsi məktəb metodlarından qismən istifadə olunmaqla məktəbəqədər təhsil metodlarından geniş istifadə olunmaqla (xüsusən ilin birinci yarısında) həyata keçirilməlidir; dərslər və fasilələr zamanı uşaqların məktəbə psixoloji adaptasiyasına dəstək verən xüsusi metodlardan istifadə edilməlidir;
- birinci sinif şagirdlərinin adaptiv göstəriciləri tədris ilinin birinci yarısında müəllim tərəfindən ciddi şəkildə nəzarətdə saxlanılmalıdır;
- Uşaqlar üşün çətin olan adaptasiya prosesi mərhələsini asanlaşdırmaq məqsədilə müəllim şagirdlərin həmyaşıdları ilə aktiv qarşılıqlı əlaqəsini, əməkdaşlığını təmin etmək üçün müxtəlif vasitələrdən istifadə etməsi məsləhətdir;
- təhsilin başlanğıc mərhələsində valideynlər ailədə övladlarına qarşı sevgi və qarşılıqlı yardım atmosferi yaratmalıdırlar;
- məktəbəqədər hazırlıq qruplarında fəaliyyət göstərən tərbiyəçi, uşaq bağçası müəllimi ilə ibtidai sinif müəllimləri arasında iş metodları və üsullarının davamlılığından və pedaqoji ünsiyyətdən tam istifadə etmək proses üçün faydalı olar.

**İddiaçının dissertasiyanın məzmununu, əsas elmi ideyalarını və nəticələrini özündə əks etdirən aşağıdakı məqalə və tezisləri nəşr olunmuşdur:**

1. I sinif şagirdlərinin məktəbə adaptasiyasında temperament xüsusiyyətlərinin rolu //- Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərlər jurnalı, -2019. № 4, - s. -60-64.
2. Features of the psychologıcal and pedagogıcal adaptatıon of students1st grade to study ın a comprehensıve school // Revista Universidad & Sociedad, "Hacia la socializacion de resultados cientificos en Scopus", - 2020. № 6, -p.p. 404-410.
3. Использование возможностей электронных ресурсов обучения в период пандемии/ Ахмедов Г.Г. // Муниципальное образование: инновации и эксперимент, -2021. № 1 (76), - s. 15-23.
4. I sinif şagirdlərinin məktəbə adaptasiyası probleminin pedaqoji-psixoloji ədəbiyyatda qoyuluşu// Pedaqogika jurnalı, -2021. № 1, -s. 110-118.
5. I sinif şagirdlərinin pedaqoji adaptasiya nəzəriyyəsinin əsas müddəaları: məktəbə adaptasiya və dezadaptasiya məsələləri // Bakı Qızlar Universiteti, Elmi Əsərlər jurnalı, -2021. № 2, -s. 145-150.
6. I sinif şagirdlərinin məktəbə adaptasiyası zamanı onlara psixo-pedaqoji dəstəyin təşkili və vasitələri// Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərlər jurnalı, -2021. № 6, - s. 71-75.
7. Адаптация первокласников к обучению в общеобразовательной школе: психолого-педагогический условия повышения эффективности // Вестник Московского университета МВД России, -2021. № 5, -с. 285-293.
8. The process of adaptation of first-grade students to the school environment // Məktəbəqədər və ibtidai təhsil jurnalı //-2023. № 5, s.41-52
9. Uşaqların məktəb təliminə psixoloji hazırlığının diaqnostikasi // Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransınının materialları II cild, -Bakı: -22-23 noyabr, -2018, -s. 410-412.
10. Uşaqlarda məktəbə adaptasiya bacarıqlarının formalaşdırıılması // Gənc tədqiqatçıların II respublika elmi-praktik konfransının materialları, Azərbaycan Universiteti, -15 mart, -2019, - s. 94-96.
11. Ситуация психологической адаптации первоклассников к коллективу в школьной практике// Психолого-Педагогические проблемы современного образования: пути и способы их решения / Сборник материалов II Международной научно-

практической конференции г. -Дербент Республика Дагестан РФ: -27 февраля, -2019, - с. 15-19.
12. I sinif şagirdlərinin pedaqoji adaptasiya prosesinin əsas xüsusiyyətləri// Müasir təhsilin inkişaf strategiyaları: uğurlar və çağırışlar, Beynəlxaql elmi konfrans, - Naxçıvan: -26-27 noyabr, -2021, -s. 707-709.
13. "COVID-19" pandemiyasının I sinif şagirdlərinin məktəbə adaptasiyasına təsiri // Müasir mərhələdə müəllim hazırlığının aktual məsələləri: uğurlar və çağırışlar" mövzusunda Beynəlxalq Elmi konfransın materialları, - Naxçıvan: -15-16 dekabr, -2022, - s. 41-44.
14. Rutinlər və öyrənmə: birinci sinif siniflərində ardıcıllığın hərtərəfli təhlili // Ali pedaqoji məktəblərdə elm və təhsil: Dünya təcrübəsi və Azərbaycan mövzusunda beynəlxaql elmi kofransın materialları, - Naxçıvan: 07 dekabr,-2023, -s.50-51
15. Elmi kadr hazırlığı məsələləri, Metodik vəsait / Əhmədov H.H, Zeynalov Ə.Ə, Nağdəlipur Nəccəri İ.E. – Bakı: Mütərcim, -2019. – s. 356.
16. Elmi kadr hazırlığının yol xəritəsi, Metodik tövsiyyə/ Azərbaycan Respublikasının Təhsil İnstitutunun 90 illiyinə həsr olunmuş elektron vəsait - 2022. - s.91.



Dissertasiyanın müdafiəsi 23 yanvar 2025-ci il tarixdə saat $13^{00}$- da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148, Akademik Zahid Xəlilov küçəsi, 33, e-mail: info@bsu.edu.az

Dissertasiya ilə Dissertasiya ilə Bakı Dövlət Universitetinin rəsmi internet səhifəsində tanış olmaq mümkündür.: http://bsu.edu.az/

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 20 dekabr 2024-cü il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.12.2024
Kağızın formatı: 60x84 1/16
Həcm: 42444
Tiraj: 100